


# Göy Qurşağı Vəkilliyi Akademiyası 2023-2024

## Proqram haqqında broşür

NƏFƏS LGBTI
AZƏRBAYCAN ALYANSI

# Artan Görünürlük

Son illər ərzində kuir fəalların və kollektivlərin, müxtəlif vətəndaş cəmiyyəti qruplarının, jurnalistlərin cəsarətli və yorulmaz işləri sayəsində Azərbaycanda LGBTİ+ icmanın insan hüquqlarının vəziyyəti yerli və beynəlxalq auditoriyada əhəmiyyətli fərqindəlik qazanmışdır.

Bu istiqamətdə mövcud boşluqların doldurulmasına töhfə vermək üçün Nəfəs LGBTİ Azərbaycan Alyansı
7 aylıq "Göy Qurşağı Vəkilliyi Akademiyası" Proqramını təqdim edir.

Program icma ilə iş təcrübəmiz, o cümlədən, bənzər proqramlar, masaüstü tədqiqat və ekspertlərlə məsləhətlər əsasında tərtib edilib.

# Məqsəd

**BU GÖRÜNÜRLÜYÜN DAYANIQLILIĞINI TƏMİN ETMƏK EHTİYACIYLA**

yeni yaranan LGBTİ+ təşəbbüs qrupları və fəallarının vəkillik bacarıqlarını gücləndirmək, o cümlədən, onların ictimai iştirakçılığını dəstəkləməkdir.

# İştirak Üçün Tələblər

LGBTİ+ aktivizminə maraqlı

İctimai vəkillik təcrübəsi ilə maraqlanan

Və 7 ay müddətində proqramda iştirak etməyə hazır olan

**HƏR KƏS "Göy Qurşağı Vəkilliyi Akademiyası" Proqramına müraciət edə bilər!**

Proqram müddətində fəal şəkildə iştirak etmək, **o cümlədən**

- Regionlardan birində keçiriləcək 2 günlük layihə yazılışı və idarə olunması təlimdə iştirak etmək;
- Proqram müddətində Bakıda keçiriləcək 4, 1-günlük konsultativ təlim-seminarlarında iştirak etmək;
- LOTS vəkillik təşəbbüsü layihəsi yazmaq və həyata keçirtmək

## LOTS (Learning On The Spot) Vəkillik Təşəbbüsləri Nədir?

Seçilmiş iştirakçılar 2 günlük intensiv təlim və konsultativ seminar-təlimlər zamanı əldə etdikləri bacarıqları tətbiq etmək və həqiqi təcrübə qazanmaları üçün LOTS vəkillik təşəbbüsü həyata keçirtmək imkanı əldə edəcəklər. Layihələrin icra müddəti 3 aydan artıq olmamalıdır.

**VASİTƏLƏR SONSUZDUR**

- Təlim
- Seminar
- İctimai müzakirə
- Sorğu
- Podkast
- Qısa-metrajlı film
- Sosial kampaniya

# Tentativ Təqvim

Layihə yazılışı və idarə olunması mövzusunda regionlardan birində 2 günlük intensiv təlim (8 - 10 dekabr 2023)

4 konsultasiya seminar-təlimləri (yanvar - fevral, 2024)

LGBTİ+ vəkillik lahiyələrinin yazılması və təqdim edilməsi (mart, 2024)

LGBTİ+ vəkillik lahiyələrinin icrası (aprel, may və iyun, 2024)

Proqramın tamamlanması və nəticələrin təqdimatı (iyul, 2024)

# Seçim prosesi

Proqramda iştirak etmək istəyənlər 22 noyabr saat 12:00-dan gec olmayaraq onlayn formada müraciət edə biləcəklər.

Seçilmiş ərizəçilər şifahi müsahibəyə cəlb olunacaq və uğurlu ərizəçilər dekabrın 2-dən gec olmayaraq yekun seçim barədə məlumatlandırılacaqlar.

Seçim mərhələsi onlayn müraciət formasının doldurulma keyfiyyətinə əsaslanacaq.

İştirakçı seçimində üstünlük təmsilçiliyi az görünən (xüsusən də trans və interökslərə) və regionlardan olan LGBTİ+lərə veriləcək. Lakin proqram icmadan olan hərkəsə açıqdır!

# Necə müraciət etməli?




**www.nafaslgbti.org** - a daxil olaraq axtarış bölməsində “Göy Qurşağı Vəkilli Akademiyası 2023-2024” yazaraq çıxan müvafiq paylaşıma keçid edərək qeydiyyat formasını əldə edə bilərsiz.

Əlavə məlumat üçün **Instagram** (@nafaslgbti) hesabımızdan bizə yaza bilərsiz.

NƏFƏS LGBTI
AZƏRBAYCAN ALYANSI